# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı**. Xalq rəssamı, professor Tokay Məmmədov respublikanın çoxşaxəli yaradıcılıq diapazonuna malik heykəltəraşlarından biridir. Onun yaradıcılığı monumental və dəzgah, memorial xatirə və qabartma sahələrini əhatə edir.

Tokay Məmmədov yaradıcılığa 1950-ci illərdən başlamışdı. Əsərləri özünəməxsus dəst-xətti ilə seçilən heykəltəraşın ilk yaradıcılıq dövrü İkinci Dünya müharibəsindən sonrakı quruculuq dövrünə təsadüf etmişdir. Hələ tələbəlik illərindən başlayaraq bir çox sadə insanların portretlərini və özündə xalqımızın qəhrəmanlıq salnaməsini əks etdirən kompozisiyalar yaratmışdır. Artıq həmin illərdə onun yaratdığı monumental abidələr şəhərlərimizi bəzəməyə başladı.

Tokay Məmmədov bu əsərləri ilə diqqəti cəlb etmiş və onların haqqında postsovet məkanında bir sıra qiymətli mütəxəssis fikirləri də söylənmişdir. Sənətşünaslar – Mürsəl Nəcəfov, Cəmilə Novruzova, Nurəddin Həbibov və Nataliya Miklaşevskaya, heykəltəraşlar – Pinxos Sabsay, Ömər Eldarov, Nikolay Tomski və b. heykəltəraşın müxtəlif illərdə sərgilərdə nümayiş etdirilən portret əsərlərinə və müxtəlif məzmunlu kompozisiyalarına, eləcə də açıq səma altında ucaldılan monumental əsərləri yüksək dəyərləndirmişlər.

Tokay Məmmədovun səmərəli yaradıcılığı hər zaman dövlət tərəfindən dəyərləndirilmişdir. O, yaratdığı dəyərli əsərlərə görə 1962-ci ildə Azərbaycan SSR əməkdar incəsənət xadimi, 1973-cü ildə isə Azərbaycan SSR xalq rəssamı fəxri adlarına layiq görülmüşdü. Heykəltəraş 1975-ci ildə SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü seçilmiş, 1977-ci ildə isə Azərbaycan incəsənəti tarixində heykəltəraşlıq sahəsində professor adına layıq görülən ilk sənətkar olmuşdur. Tokay Məmmədova yaratdığı heykəltəraşlıq nümunələrinə görə bir çox yüksək dövlət mükafatları verilmişdir. 1978-ci ildə SSRİ Dövlət Mükafatı laureatı, 1982-ci ildə isə Azərbaycan SSR Dövlət Mükafatı laureatı adına layiq görülmüşdür. Bununla yanaşı heykəltəraş həmçinin "Şərəf nişanı", "Xalqlar dostluğu", "Şöhrət" ordenləri və müxtəlif medallarla da təltif olunmuşdur.

Azərbaycan sənətşünaslığında indiyə qədər sənətkarlığı duyulası dərəcədə yüksək, şəxsiyyəti böyük olan bu insanın çoxşaxəli yaradıcılığına dair geniş və əhatəli tədqiqatın olmaması qarşısında, Tokay Məmmədovun

sənət yoluna həsr olunmuş tutumlu elmi tədqiqatın aparılmasına böyük zərurət duyulur. Belə ki, onun müasir Azərbaycan təsviri sənətinin inkişafına verdiyi töhfələrin bədii-estetik dəyərinin müəyyən olunması gənc heykəltəraş nəslinin formalaşması və inkişafı yolunda mühüm əhəmiyyət kəsb etməklə, milli sənətşünaslığımızın zənginləşməsinə kömək etmiş olardı.

**Problemin öyrənilmə dərəcəsi.** Heykəltəraş Tokay Məmmədov haqqında müxtəlif illərdə dövrü mətbuatda – qəzet və jurnal səhifələrində çoxsaylı məqalələr yazılmışdır. Heykəltəraşın müxtəlif miqyaslı sərgilərdə nümayiş etdirilən əsərləri, eləcə də şəhərlərdə ucaldılan monumental abidələri sənətsevərlərin və jurnalistlərin diqqətini cəlb etmiş və görkəmli sənətkarın özü və yaradıcılığı haqqında onlarla yanaşı həmdə sənət dostlarının yazıçı, şair və tədqiqatçıların yazıları çap olunmuşdu. Bu mənada Nüsrət Kəsəmənlinin "Bakı" qəzetinin (1976-cı il 26 fevral), F.Kərimzadə və İ.Mustafayev "Ədəbiyyat və incəsənət" qəzetinin (1967-ci il 1 iyun), Davud Nəsib "Ədəbiyyat və incəsənət" qəzetinin (1976-cı il 28 fevral), Cəmilə Novruzovanın "Qobustan" jurnalında (1971 №2), Mürsəl Nəcəfovun "Bakı" qəzetində (1971, 11 iyun), Mövsüm Əliyevin "Qobustan" jurnalında (1979 №1), Kazım Kazımzadənin "Ədəbiyyat və incəsənət" qəzetinin (1978-ci il 26 avqust), Azad Şərifin "525-ci qəzet"in (2002-ci il 20 iyul), Cəlal Qaryağdının "İncəsənət" qəzetinin (1958-ci il 27 sentyabr), Nurəddin Həbibovun "Azərbaycan" jurnalında (1964. №2), P.Sabsayın "Ədəbiyyat və incəsənət" qəzetinin (1962-ci il 9 iyun), Paşa Hacıyevin "Kommunist" qəzetinin (1964-cü il 25 fevral), N.N.Miklaşeviskayanın «Вышка» qəzetində (1978-ci il 23 avqust), Mehdi Hüseynin «Литературная Россия» qəzetində (1964-cü il 3 aprel), Tahir Salahovun «Баку» qəzetində (1964-cü il 28 yanvar), P.Sabsayın «Бакинский рабочий» qəzetində (1951-ci il 2 noyabr) çıxan məqalələri və s. qeyd etmək olar.

Onun yaratdığı bir çox portret və kompozisiyaları dövrün görkəmli rəssam və heykəltəraşları ilə bərabər (F.Əbdürrəhmanov, P.Sabsay, C.Qaryağdı, Z.Məmmədova, M.Abdullayev, T.Salahov və başqaları) müxtəlif sərgilərdə nümayiş etdirilmiş və bu sərgilər mətbuat səhifələrində işıqlandırılmışdır.

Lakin yuxarıda göstərildiyi kimi, bu məqalələr ümumi xarakter daşımış və heykəltəraşın yaradıcılığını tam əhatə edə bilməmişdir. Bütün bunlara baxmayaraq demək lazımdır ki, heykəltəraş Tokay Məmmədovun yarım əsirdən çox bir dövrü əhatə edən yaradıcılığı bu vaxta qədər ətraflı və



***Samir Gismet Sadikhov***

## THE IMPORTANCE OF THE ARTISTIC CHARACTERISTICS OF TOKAY MAMEDOV'S CREATIVE WORKS IN AZERBAIJAN SCULPTURE

## S U M M A R Y

The Dissertation dedicated to scientific research of People`s Artist of Azerbaijan Tokay Mamedov`s Art , defining his place and role in Azerbaijani Sculpture. This Research consists of introduction, two chapters, five sub-chapters, conclusion, list of used literature and illustrated album.

There are definition of urgency of the problem, the grade of the study of this field, goals and tasks of subject and object, methodical base of research, establishment of the borders, scientific novelty and practical purpose of this research in introduction.

Aprobation, structure and work scope information are given.

**Chapter 1** – "Characteristic features of plastic solution of a figure in creativity of Tokay Mamedov" talks about his life, student years, early art activity. His portrait activity characterized with plastic entirety and realistically displayed character where psychology of the figure revealed is also analyzed. Furthermore this chapter considers memorial sculptures of reknown figures of our nation.

**Chapter 2** – "Implementation of monumental sense of Tokay Mamedov"

In three dementional space is dedicated to creativity of the Artist, belonging to 1960-2010`s. Monumental sculptural compositions of the master demonstrated now because of ideological reasons are reviewed. Also there are sculptures analyzed that decorate the city now.

At the end conclusions are given.

*Самир Гисмет оглы Садыгов*

## ЗНАЧЕНИЕ ХУДОЖЕСТВЕННЫХ ОСОБЕННОСТЕЙ ТВОРЧЕСТВА ТОКАЯ МАМЕДОВА В АЗЕРБАЙДЖАНСКОЙ СКУЛЬПТУРЕ

### Р Е З Ю М Е

Диссертация посвящена научному исследованию творчества Народного художника Азербайджана Токая Мамедова, определению его места и роли в скульптуре Азербайджана. Исследование состоит из введения, двух глав, пяти подглав, заключения, списка использованной литературы и иллюстративного альбома.

**Во введении** определяются актуальность проблемы, степень изученности темы, цель и задачи, объект и предмет, методологическая база исследования, обосновываются границы, научная новизна и практическое значение исследования. Даются сведения об апробации, структуре и объеме работы.

**Первая глава – «Свойства пластического решения образа в творчестве Токая Мамедова»** посвящена студенческим годам и раннему творчеству скульптора. Анализу подвергается его портретное творчество, характеризующееся сочетанием пластической цельности с реалистическим отображением образа, где раскрывается проблема художественного отображения психологии человека. Также рассматривается мемореальная скульптора Т.Мамедова, увековечивающая образы ушедших из жизни видных деятелей.

**Вторая глава – «Осуществление монументального ощущения Токая Мамедова в объемном пространстве»** посвящена творчеству художника, относящемуся к 1960-2010-м гг. Рассматриваются монументальные скульптурные произведения мастера, демонтированные ныне по идеологическим причинам. Анализу также подвергаются монументальные памяники автора, в настоящее время украшающие город.

**В заключении** подводятся итоги исследования.



tam şəkildə işıqlandırılmamışdır. Böyük sənətkar haqqında yalnız sənətşünas alim Cəmilə Novruzova tərəfindən yazılan monoqrafiya da qırx il əvvəl (1972) işıq üzü görmüşdür, başqa sözlə desək, ondan sonrakı yaradıcılığı tədqiqatdan kənarda qalmışdır. Bundan əlavə heykəltəraşın 80 ilik yubileyi ərəfəsində onun həyat və yaradıcılığına həsr olunmuş qısa metrajlı sənədli filim çəkilmişdir. Tokay Məmmədovun yaradıcılığı haqqında vaxtaşırı yazılan qəzet və jurnal məqalələrində isə onun yaradıcılığı haqqında daha çox lakonik məlumatlar öz əksini tapmışdır.

Bununla yanaşı demək lazımdır ki, Moskvada 1970-ci ildə çap olunmuş «Искусство Советского Азербайджана: живопись, графика, скульптура» kitabında, Sənətşünas Cəmilə Novruzova tərəfindən 1968-ci ildə yazılmış «Монументальная скульптура Советского Азербайджана» adlı dissertasiya işində və 1979-cu ildə çıxmış «Скульптура Советского Азербайджана» kitabında Tokay Məmmədov yaradıcılığı haqqında məlumat verilmşdır. Bu məlumatlar Tokay Məmmədov yaradıcılığının yalnız bir sahəsini-monumental heykəltəraşlığı əhatə edir və sənətkarın yaratdığı portretlər, memorial-xatirə əsərlər, barelyef və qorelyeflərini, müxtəlif məzmunlu kompozisiyaları əhatə etmir. Bütün bunlar istedadlı heykəltəraşın əhatəli yaradıcılığının bütün sahələrini tədqiq və təhlil etməyin zəruriliyini şərtləndirir və mərhələlərlə hərtərəfli şəkildə öyrənilməsini tələb edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın əsas məqsədi XX əsrin Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, xalq rəssamı, professor, heykəltəraş Tokay Məmmədovun çoxşaxəli yaradıcılığının bədii-estetik xüsusiyyətlərini dəyərləndirmək və elmi şərhini verməkdir.

Qarşıya qoyulan məqsəd aşağıdakı məsələlərin həllini tələb edir:

- Heykəltəraşın həyatını şərh etmək və yaradıcılığındakı istiqamətləri müəyyənləşdirmək;
- T.Məmmədovun portret və qabartma sahələrində ki, əsərlərini öyrənməklə onların ən parlaq nümunələrini təhlil etmək;
- Sənətkarın monumental, memorial-xatirə işlərinin bədii dəyərinin təhlili və onların səciyyəvi cəhətlərini müəyyənləşdirmək;
- T.Məmmədovun demontaj edilmiş monumental əsərlərinin bədii-plastik xüsusiyyətlərini səciyyələndirmək;
- Heykəltəraşın şəhərlərimizdə ucaldılmış monumental heykəllərinin təhlili və fəza-məkanla əlaqəsi məsəllərinin dəyərləndirilməsi;

- T.Məmmədovun Azərbaycan heykəltəraşlığındakı mövqeyinin müəyyən olumması;
- T.Məmmədovun milli heykəltəraşlıq məktəbinin formalaşmasında rolu;

**Tədqiqatın obyekti və predmenti.** Tədqiqatın predmetini heykəltəraş Tokay Məmmədovun həyat və yaradıcılığı, onun əsərlərinin forma-biçim, məna-məzmun, üslub, dəst-xətt göstəriciləri təşkil edir.

Tədqiqatın obyektini isə Tokay Məmmədovun yaratdığı əsərlər və heykəltəraşın öz şəxsiyyəti haqqında dövrü mətbuatda – qəzet, jurnal və kitablarda dərc olunan məqalələr və yazılar təşkil edir.

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqat işinin metodoloji əsasını heykəltəraşın çoxşaxəli yaradıcılığının ayrı-ayrı sahələrinin səciyyələndirilməsi və bir çox əsərlərinin təhlili təşkil edir. Tədqiqat işində nəzərdən keçirilən problemlərin təhlilində milli və ümumbəşəri dəyərlərdən, sənətşünaslığın elmi-nəzəri müddəa və qənaətlərindən faydalanılmışdır. Problemin tədqiqində tarixilik prinsipinə və xronoloji ardıcıllığa riayət edilmiş, başlıca olaraq tarixi-müqayisəli metoddan istifadə olunmuşdur.

**Tədqiqatın sərhədləri.** Tədqiqatda janr bölgüsü aparılmış, yaradıcılığın evolyusiyası xronoloji ardıcıllıqla verilmişdir. Burada həm də, heykəltəraş Tokay Məmmədovun yaradıcılığa başladığı dövrə qədər ki, Azərbaycan heykəltəraşlığının keçdiyi yol öz əksini tapmışdır. Bu dövrdə yaşayan sənətkarların heykəltəraşın yaradıcılığına təsirini göstərmək məqsədi ilə tədqiqatda Azərbaycan plastika sənəti 1940-cı ildən bu günə qədər ki, dövrünə güzgü tutmuşdur, bu da heykəltəraşın son işinə qədər bir dövrü əhatə edir.

**Elmi yenilik.** Tədqiqat işinin elmi yeniliyi məhz problemin özünün qoyuluşu ilə müəyyən olunur və əsasən aşağıdakı müddəalarda öz əksini tapır:

- İlk dəfə olaraq Azərbaycan sənətşünaslığında Tokay Məmmədovun həyat və yaradıcılığı tam və dolğun müstəqil monoqrafik tədqiqat obyekti kimi təqdim olunub;
- Tokay Məmmədovun yaradıcılığı ardıcıl tədqiq olunaraq sistemləşdirilmiş, ayrı-ayrı mərhələlər müəyyən olunmuş və onların təhlilindən sonra bədii-estetik nəticə və müddəalar çıxarılmışdır;
- İlk dəfə olaraq heykəltəraşın portret və memorial xatirə əsərləri geniş əhatə olunaraq tədqiq və təhlil edilmişdi;



Xalçası və Xalq Tətbiqi Muzeyi, Təsviri və dekorativ-tətbiqi sənət məsələləri №1-2 Bakı 2009, səh 105-110.

9. Роль Токая Мамедова в развитии Азербайджанской скульптуры // «Культура народов Причерноморья» №173. Украина, Симферополь 2009, стр. 17-19.
10. О творчестве народного скульптора Токая Мамедова // «Русскоязычие и би(поли)лингвизм в межкультурной коммуникации XXI века: когнитивно-концептуальные аспекты. Материалы III Международнай научно-методической конференции 14-16 апреля 2010 года – Пятигорск, с. 152-153.
11. Heykəltəraşın yaradıcılığında rəssam obrazları // "İncəsənət və Mədəniyyət Problemləri", №1(31), Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu – Bakı, 2010, s.306-310.
12. Azərbaycan heykəltəraşlığında Mehdi Hüseynzadə obrazı // "Qobustan" sənət toplusu, №2 – Bakı, 2010, səh. 20-23.
13. Tokay Məmmədovun Koroğlu heykəli // Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Muzeyi, Təsviri və dekorativ-tətbiqi sənət məsələləri №1 (7), Bakı 2011, səh.117-126.
14. Tokay Məmmədovun memorial xatirə əsərləri // Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Mədəni Həyat 1*2012, səh. 67-69.

biridir.
- Tokay Məmmədovun yaradıcılıq üslubunda əsasən gərgin emosional xüsusiyyətlər, daxili psixoloji və fəlsəfi keyfiyyətlərin üstünlüyü diqqət mərkəzindədir.
- Tokay Məmmədov – yaradıcılığı müasir dövrdə tamaşaçı diqqətini özünə cəlb edən, istedadlı heykəltəraşların bütöv bir nəslini yetişdirmiş gözəl müəllimlərdən biridir.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**


1. Heykəltəraş Tokay Məmmədovun yaratdığı ilk portret əsərləri // "İncəsənət və Mədəniyyət Problemləri" №1(19), Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu – Bакı, 2007, s.158-162.
2. Heykəltəraş Tokay Məmmədovun yaratdığı ilk monumental əsəri // "İncəsənət və Mədəniyyət Problemləri", №4(22), Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu – Bакı, 2007, s.101-106.
3. Heykəltəraş Tokay Məmmədovun yaradıcılığında qadın obrazları // "İncəsənət və Mədəniyyət Problemləri" №3-4 (25-26), Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu– Bakı, 2008, s.247-251.
4. Heykəltəraşlıqda Füzuli obrazı // "Mədəniyyət dünyası", XVI buraxılış, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin toplusu – Bakı, 2008, s.365-370.
5. Tokay Məmmədovun ağacdan yaratdığı portretlər // "Mədəniyyət dünyası", XVII buraxılış, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetnin toplusu – Bakı, 2009, s.237-241.
6. Tokay Məmmədovun yaradıcılıq irsində musiqiçi portretləri // "Musiqi Dünyası", №1-2 – Bakı, 2009, s.118-120.
7. Bakıda Nəsiminin monumental heykəli // "Elmi əsərlər", №2, Azərbaycan Memarlıq və İnşaat Unversiteti – Bakı, 2009, s.125-128.
8. Tarixləşən heykəlin tarixçəsi // Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Lətif Kərimov adına Azərbaycan




- Tədqiqat həm də heykəltəraşın sovet dönəmində ucaldılmış və sonradan, müstəqillik illərində demontaj edilmiş monumental abidələri ilk dəfə sənətkarlıq baxımından təhlilini tapmışdır;

- Tokay Məmmədovun yaradıcılığında önəmli yer tutan və ömrünün 30 ilini həsr etdiyi Koroğlu əsəri ilk dəfə tədqiqata cəlb edilərək ətraflı təhlili aparılmışdı;

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Hazır ki tədqiqat milli heykəltəraşlıq məktəbinin tarixini genişləndirərək Azərbaycan incəsənətinin ümumi inkişafında Tokay Məmmədovun yaradıcılığının rolunu, yerini və təzahür formalarını müəyyən edir.

Tədqiqat rəssamlıq təmayüllü ali və orta ixtisas müəssisələrində heykəltəraş və sənətşünas tələbələrə "Heykəltəraşlıq tarixi" və "Azərbaycan incəsənət tarixi" kursları çərçivəsində tədris oluna bilər. Dissertasiya Tokay Məmmədovun yaradıcılığı haqqında yazılmış elmi-tədqiqat işi kimi, bu sahədə çalışan hər bir şəxs üçün dəyərli bir vəsaitdir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun "Təsviri və dekorativ-tətbiqi sənətlər" şöbəsində yerinə yetirilmişdi. Araşdırmanın əsas məzmunu, elmi müddəa və nəticələri 14 məqalədə öz əksini tapmışdır, mövzu üzərindəki axtarışları əks etdirən məruzələr müxtəlif səpgili elmi konfranslarda dinlənilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, beş yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu kompüter yığımının 130 səhifəsində öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## Tədqiqatın məzmunu

Girişdə mövzunun aktuallığı, məqsəd və vəzifələri, onun işlənmə səviyyəsi, eləcə də işin elmi yeniliyi, praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

**Fəsil I – "Tokay Məmmədovun yaradıcılığında obrazın plastik həlli xüsusiyyətləri"** adlanır və heykəltəraşın həyatına, tələbəlik illərindəki erkən dövr yaradıcılığına, portret və memorial xatirə tipli yaradıcılığına həsr olunmuşdur. Bu fəsil üç yarımfəsildən ibarətdir. **Birinci yarımfəsildə**

Tokay Məmmədovun həyatı və yaradıcılığının ilkin dövrü öz əksini tapmışdır. Heykəltəraşın tələbəlik illərində yaratdığı portretləri nəzərdən keçirilir və təhlil olunur.

Qeyd etmək lazımdır ki, T.Məmmədov gənc heykəltəraş kimi müstəqil yaradıcılığa hələ 1947-cı illərin əvvəllərində başlayıb. Tokay Məmmədov Əzim Əzimzadə adına Bakı rəssamlıq məktəbində təhsil aldığı zaman bir çox işlər yerinə yetirmişdir. Onun bu dövrdə yaratdığı plastik nümunələr sırasında "Tələbə qız", "Kişi" və "Dayım" portretlərini, eləcə də xalq qəhrəmanlarına aid kompozisiyasını qeyd etmək olar.

Böyük Vətən müharibəsi qurtardıqdan sonra ölkədə əmin-amanlıq yenidən bərqərar olduqda, T.Məmmədov 1945-ci ildə Əzim Əzimzadə adına Bakı rəssamlıq məktəbinin üçüncü kursunu bitirərək Sankt-Peterburq şəhərinə gedir, uğurla imtahan verib İ.Repin adına Rəngkarlıq, heykəltəraşlıq və memarlıq institunun heykəltəraşlıq fakültəsinə qəbul olunur. Bu institutda təhsil aldığı illərdə T.Məmmədov yaradıcılıq fəaliyyətinə fəal qoşulur.

Nəzərdən keçirilən dövrdə T.Məmmədovun yaradıcılıq təcrübəsində portret janrına olan marağı artır. Bunun nəticəsi olaraq meydana bədii məzmun baxımından mühüm əhəmiyyət kəsb edən əsərlər meydana gəlir. Rəssamın bu sahədə ilk uğurlu əsərləri kimi "Azərbaycanın xalçaçı rəssamı Lətif Kərimovun büstünü" (1947), rus şərqşünaslığının banisi, görkəmli azərbaycanlı alim "Mirzə Kazımbəyin portretini" (1948) və xüsusən heykəltəraşın institutu bitirərkən yaratdığı diplom işini göstərmək olar.

Gənc heykəltəraşın diplom işi "26 Bakı komissarları" (1951)1950-ci illərin ən uğurlu əsərlərindən sayılır. Sankt-Peterburqda gənc heykəltəraşın diplom işinin müdafiəsində dərs deyən müəllimlərindən başqa sənətşünas Mürsəl Nəcəfov da iştirak etmişdir. O qeyd edir ki, "Dörd fiqurdan ibarət kompozisiyada Bakı kommunasının rəhbərləri təsvir edilmişdir. Məğrur duruşlu təsvir edilmiş bu obrazlardan müəyyən etmək olur ki, bunlar heç zaman düşmən qarşısında əyilməyəcəklər. Həmçinin Tokay qarşısına qoyduğu məqsədə çatmış yüksək sənətkarlıq bacaracağının bəhrəsi olaraq çox dinamik və emosional hərəkətdə insan fiqurları yaratmışdır". [1]

Bu gün bu əsər ideoloji baxımdan qəbul olunmasa da, onun diqqətçəkən bədii-estetik xüsusiyyətlərinə malik olduğunu vurğulamaq lazımdır. Dinamik biçimli fiqurlar tamaşaçısına emosional təsir bağışlaya

---

[1] Nəcəfov M.Yüksək tələblər səviyyəsində // "Ədəbiyyat və incəsənət" qəz.,1973,27 oktyabr,s13.



işinin qəhrəmanı yalnız istedadlı heykəltəraş deyil. O, eyni zamanda ictimai xadim, gözəl pedaqoqdur.

Bütövlükdə demək olar ki, məhsuldar yaradıcılıq fəaliyyəti nəticəsində Azərbaycanın xalq rəssamı, heykəltəraş T.Məmmədov milli mədəniyyət tariximizdə şərəfli yerlərdən birini tutmağa layiq sənətkardır. Hansı mövzuda işləməsindən asılı olmayaraq Tokay Məmmədov sənətdə öz fərqli dəsti-xəttini, fərqli düşüncə tərzini qoruyub saxlamağa nail olmuş, intellektual baxımdan layiqli müzakirə mövzusu ola biləcək konsepsiyalar irəli sürmüş və bunu ilk dəfə yapanlardan olmuşdur.

**Nəticədə** heykəltəraşın çoxşaxəli yaradıcılığı yekunlaşdırılır və tədqiqatın əsas nəticələri göstərilir:

- Tokay Məmmədovun zəngin yaradıcılığında heykəltəraşlığımızın bütün sahələri (yaradıcılığı monumental və dəzgah, memorial xatirə və qabartma) öz əksini tapmışdır.
- Tokay Məmmədovun yaratdığı portret əsərləri öz fəlsəfi keyfiyyətləri ilə diqqəti cəlb edir. Portreti yaradılan şəxsiyyətin real və yaxud tarixin səhifələrində yaşayan olmasına baxmayaraq, Tokay Məmmədov obrazın portret oxşarlığına, inandırıcı olmasına diqqətlə yanaşmış və odur ki, o, son nəticədə portretin bədii təqdimində dəqiq psixoloji müəyyənliyə və obrazın dərin və duyğulandırıcı səciyyəviliyinə müvəffəq olmuşdur.
- Heykəltəraşın memorial-xatirə tipli işlərində milli köklərdən dəyərincən istifadə edilmişdir.
- Heykəltəraşın yaratdığı ilk monumental heykəlləri demontaj edilsə də öz sənətkarlıq əhəmiyyətini heç zaman itirməyəcəkdir.
- Heykəltəraşın yaradıcılığında dominatlıq təşkil edən metod realizımdır;
- Tokay Məmmədov – yaradıcılığında əsasən dinamik xarakterli obrazların mövcudluğu aparıcı yerlərdən birini təşkil edir.

  Tokay Məmmədov – parlaq şəkildə öz dəst-xəttini tapmış özünəməxsus yaradıcılıq xüsusiyyətlərinə malik olan heykəltəraşlardan biridir.
- Tokay Məmmədov – yaradıcılığında mövcud olan əsərlərdə ifadə tərzi yumşaqlıqdan kəskinliyə doğru, inkişaf etdirilmiş, insandakı başlıca cəhətləri ümumiləşdirməyi bacarmışdır.
- Tokay Məmmədov yarım əsirdən çox bir dövr ərzində Azərbaycan heykəltəraşlığına çox dəyərli nümunələr bəxş etmiş tişə ustalarından

əhval-ruhiyyə yaranmışdır. İfadə vastələrinin bədii keyfiyyətləri ilə əldə edilən plastik gözəllik monumentin bütün hissələrində mövcuddur.[15]

Heykəltəraş P.Sabsay Füzuli abidəsi haqqında yazır: "Bakı şəhərində ucaldılan monumental abidələr sırasında öz zəngin daxili keyfiyyətləri ilə seçilən abidələrdən biri də Tokay Məmmədovun və Ömər Eldarovun yaratdığı Füzulinin heykəlidir. Burada heykəltəraş, həmçinin Füzulinin ölməz Leyli və Məcnun əsərindən götürdüyü obrazları qabartma şəklində canlandırmışdır. Postamenti təskil edən boz rəngli böyük qranit parçasının qızılı rəngli tunc heykəl ilə qırılmaz vəhdət təşkil edir". [16]

Füzuli abidəsi onu əhatə edən meydanın memarlıq ansamblında mərkəzi rol oynayır, onu daha da zənginləşdirir, ona estetik ahəng gətirir. Əsər ictimaiyyət tərəfindən layiqincə qiymətləndirilib. Müəlliflər 1963-cü ildə SSRİ Rəssamlıq Akademiyasının gümüş medalı ilə mükafatlandırılıblar.

1975-ci ildə heykəltəraşlıq sahəsində "İmaməddin Nəsiminin" heykəlini İbrahim Zeynalovla, Tokay Məmmədov birlikdə hazırlamağa başladılar. Tokay Məmmədovun müsabiqə üçün düzəltdiyi heykəlin kiçik modeli indinin özündə də emalatxanasında qalmaqdadır. Bu obrazda heykəltəraş Nəsimini edam ərəfəsində təsvir etmiş, əllərini qarşıda bağlamış vəziyyətdə təsvir etmişdir.

İmadəddin Nəsiminin tuncdan tökülmüş heykəli qranit kürsü üzərində ucalır. Şair əllərini arxada tutaraq şux qamətlə dayanmışdır. Abidəyə diqqətlə baxanda, obrazın bütün daxili dinamik hərəkətlə dolu olduğunu görmək mümkündür. Heykəlin materialının tuncun plastik çalarlarının incə ifadə imkanlarından istifadə edən heykəltəraşlar həcm, konstruksiya, kütlələrin bölgüsünü, geyimin bəzəklərinin formasını düşünüb hesablamaqla plastik məna tutumuna nail olmuşlar. Formaların konstruktiv ahəngi, alnın genişliyi, çökük gözlərin süzgün baxışı, sıxılmış ağzının iradə nümayişi azca kədərli çöhrəsinin düzgün quruluşu və başın ifadəli hərəkətinin özü şairin daxili dünyasının aşkarlamasına dramatik taleyi olan insan obrazının yaradılmasına yönəldilmişdir.

T.Məmmədov heykəltəraşılğın bir çox janrlarda fəaliyyət göstərməsinə baxmayaraq, monumental heykəl abidələri istedadını tam, bütün dolğunluğu ilə nümayiş etdirən sahələrdən biri olmuşdur. Dissertasiya

[15] Həbibov N. Böyük Füzulinin abidəsi // "Azərbaycan" jurnalı, 1964, №2, s. 91-94.
[16] Сабсай П. Памятник Мухаммеду Физули // газ. «Бакинский рабочий», 1964, 14, март, с. 3.



biləcək bir görkəmdədir. Ölüm ərəfəsində təsvir olunan bu insanların üzündən görünür ki, onlar heç nədən qorxmurlar, odur ki, öz düşmənlərinə də qəzəb və nifrətlə baxırlar. Gənc heykəltaraşın əks etdirdiyi obrazlarda hissləri və baxışları bu cür inandırıcı plastik biçimdə göstərməsinə rəğmən demək olar ki, heykəltəraşlığımızda öz qəhrmanlarına yeni baxışı olan bir sənətkar yetişir.

Getdikcə T.Məmmədovun əsərləri özünə daha geniş tamaşaçı diqqəti cəlb edir. Bu əsərlərdə, yumşaq və axıcı plastika daha cəlbedici şəkildə özünü bürüzə verir. Belə ki, onlar öz möhtəşəmliyi, reallığı, canlılığı və təbiiliyi, gözoxşayan kompozisiya və dinamik həlli, formalarının bütövlüyü və aydınlığı ilə fərqlənir.

Bu keyfiyyətlər özünü aydın şəkildə heykəltəraşın klassik Azərbaycan şairi "Nizami Gəncəvinin portreti" (1953) əsərində göstərir. Heykəltəraşa şöhrət gətirmiş bu əsəri mühüm yaradıcılıq uğuru hesab etmək olar. Tokay Məmmədovun yaratdığı "Nizami Gəncəvi" portreti 1955-ci ildə Varşavada Gənclərin Beynəlxalq Ümumdünya Festivalında uğurla nümayiş etdirilmişdir.[2] Hal-hazırda ağacdan yonulmuş bu portret şairin adını daşıyan Milli Azərbaycan Ədəbiyyat muzeyinin ekspozisiyasında nümayiş etdirilir.

T.Məmmədov Azərbaycan heykəltəraşlığında ağac materialının çoxtutumlu vasitə olduğunu təsdiqləmişdir. Bundan sonra ağac onun ən sevimli materialına çevrilir.

Həyat hadisələrindən mənəvi qida alan T.Məmmədov, incə insan hisslərini əks etdirməyi peşəkarcasına bacarırdı. Bu hisslər öz əksini tamaşaçı məhəbbətini və mehribanlığını qabarıq əks etdirən "Artist N.Simonov" (1950), "Neftçi Asəf Zeynalov" (1948), "Gənc oğlan" (1951) və s. əsərlərində özünü tapmışdır.

Heykəltəraş sənətdə öz yolu ilə getməyi qarşısına bir məqsəd qoymuşdur. Bu səbəbdən tişə ustası sadə əməksevər insanların, alimlərin, şairlərin, yazıçıların, dövlət xadimlərinin, sənət dostlarının obrazlarına müraciət etmişdir. T.Məmmədov 1954-cü ildə Sosialist Əməyi Qəhrəmanı "Alagöz Məmmədovanın portreti"ni yaratmışdır. Bu portretdə sənətkar azərbaycanlı qadına xas bütün müsbət keyfiyyətləri göstərməyə nail

[2] Габидов Н., Наджафов М. Искусства Советского Азербайджана. Живопись, скульптура, графика. Москва. 1960, с.74.

olmuşdur. Bilavasitə naturadan yaradılmış bu əsərdə özünəməxsuz canlılıq mövcudur.[3]

Tokay Məmmədov hər yeni işə başlamazdan öncə qəhrəmanı haqqında mümkün olan bütün materalları ətraflı öyrənməyə çalışır, bu da ona elə ilk eskizdən artıq obrazın əsas cizgilərini tapmağa kömək edir. Bu prosesdə o, portretin forma-biçimini, onun hərəkətini, jestini, başqa sözlə desək, kompozisiyanı təşkil edən bütün elementlərini modelin səciyyəvi əlamətlərinə əsaslanmaqla ifadə etməyə üstünlük verir.

Ali təhsilini başa vuraraq ölkəmizə qayıtdıqdan sonra əvvəlcə rəssamlıq məktəbində dərs deməyə başlayıb, bundan sonra isə 1963-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətlə məşğul olub. 1983-ci ildə isə həmən təhsil ocağının "Heykəltəraşlıq" kafedrasının rəhbəri vəzifəsinə seçilir və gənc heykəltəraşların yetişdirilməsində iştirak edən kadrlara bilavasitə rəhbərlik etməyə başlayır.

"Tokay Məmmədovun portret yaradıcılığında şəxsiyyətin bədii təcəssümü problemi" adlanan **ikinci yarımfəsil**, heykəltəraşın 1960-2009-cu illər portret janrı sahəsindəki yaradıcılığına həsr olunub.

Heykəltəraşlıqda portret janrı tişə ustasını özünə ciddi cəlb edərək, onun bütün məhsuldar fəaliyyəti dövrü boyunca əsas yerlərdən birini tutmuşdur. 1950-ci illərdən başlayaraq T.Məmmədov özünü real, fərqli insan obrazları yaratmağa qadir olan istedadlı portretçi kimi göstərir. Bu əsərləri yaradarkən heykəltəraş xüsusən, portreti düzəldilmiş şəxslərin psixologiyası, fərdi və professional keyfiyyətlərinin qabarıq göstərilməsi problemləri narahat edirdi. Bu səbəbdən, T.Məmmədov bu və ya digər obrazı yaratmağa başlamamışdan əvvəl, böyük hazırlıq işləri görürdü.

1957-ci illər Tokay Məmmədovun yaradıcılığında sənətkarlığın yeni keyfiyyətlərlə zənginləşməsi mərhələsi hesab etmək olar. Bu dövrdə heykəltəraş yorulmaq bilmədən yeni-yeni əsərlərini yaradır. O, Azərbaycanın xalq şairi Səməd Vurğunun, xalq rəssamlarımız Qəzənfər Xalıqovun və Rüstəm Mustafayevin portretlərini yaratmışdır.

Tokay Məmmədovun yaratdığı portret əsərləri 1960-cı ildən sonra bütün mənalarda daha da təkmilləşərək, plastik şərhin təsvir edilən insanın fəlsəfi aləminin açılmasına yönəldilmişdir. Belə ki, o, təsvir edilən insanın

---

[3] Новрузова Д. Г. Токай Мамедов – М.: Сов. художник, 1972, с.63



Sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Novruzova qeyd edir ki, "Üzeyir Hacıbəyovun abidəsində Tokay Məmmədov zərif keçidlər, ahəngdarlıq heykəli donmuş, lakin çox ifadəli musiqi akkorduna çevirmişdir. Ümumiyyətlə, bu abidənin həcm və fəza ölçüləri Azərbaycan Dövlət Konservatoriyası binasının baş fasadı və qarşıdakı sahə ilə düz həll olunmuşdur."[13]

Heykəltəraş Tokay Məmmədovun yaratdığı monumental heykəllərin bədii şərhi və bu abidələrin nə qədər lazımlı olduğunu təsdiqləməyimiz onların qorunmasının vacibliyini şərtləndirir. Müasir şəhərdə heykəltəraşlıq əsərinin rolundan danışarkən bir önəmli və mühüm məsələni – qədim abidələrin, köhnə heykəllərin qorunmasını və bərpa edilməsi məsələsini yaddan çıxarmaq olmaz.

1958-ci ildə Bakıda qoyulacaq Məhəmməd Füzulinin abidəsi üçün müsabiqə keçirilir. Heykəltəraşlarımız arasında əsl yaradıcılıq yarışı başlanır. İstedadlı heykəltəraşlarımızdan Tokay Məmmədov və Ömər Eldarovun birgə işlədikləri layihə müsabiqənin birinci mükafatına layiq görülmüş və 1962-ci ilin iyun ayında Bakı şəhərinin mərkəzində – şairin adını daşıyan meydanda, Milli Dram Teatrının (memarı Q.Əlizadə) binası qarşısında Füzulinin monumental abidəsi ucaldılmışdır.

Sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Novruzova qeyd edir ki, "Gənc heykəltəraşlar uzun müddət obraza girir, onun mahiyyətini və monumentin mümkün plastik həllini anlamağa çalışırlar. Həmçinin, heykəltəraşların axtarışları təkcə obrazın psixoloji xarakterinin açılması yolu ilə getmir, eləcə də siluetin mənalı axtarışı ilə bağlıdır". [14]

Heykəltəraşlar bu işi də müvəffəqiyyətlə yerinə yetirmişlər. Şairin üzünün cizgiləri, alnında, qaşlarının arasındaki xəfif qırışlar, onun gərgin fikirlərlə yaşadığı və həyəcan keçirdiyi anı təsvir edir. Şairin qəlbinin güzgüsü olan dərin mənalı gözləri onun fikirlərə qərq olduğunu nişan verir. Heykəltəraşlar şairin yaradıcılıq ilhamı ilə yaşadığı vəziyyəti təsvir etmişlər. Obrazın üzündə işıq və kölgə təzadlarından məharətlə istifadə edilmişdir. Üzün lirik cizgilərinin axıcı tonlarından könülləri riqqətə gətirən

---

[13] Novruzova C. Müasirlərimizin təsviri // "Ədəbiyyat və incəsənət" qəz., 1971, 18 sentyabr, s.14.

[14] Новрузова Д. Г. Скульптор Токай Мамедов // газ. "Бакинский рабочий», 1959, 15 мая, с. 3.

Prezident İlham Əliyevin 3 dekabr 2009-cu il tarixli sərəncamında Azərbaycanın xalq qəhrəmanı Koroğluya abidə ucaldılması nəzərdə tutulub. Bakı Şəhər İcra Hakimiyyəti Azadlıq və Vaqif prospektlərinin kəsişdiyi ərazidə yerləşən parkda abidə üçün yer müəyyənləşdirib. Dövlət başçısı həmçinin abidənin müəllifi heykəltəraş Tokay Məmmədovun emalatxanasında abidənin maketinin iki variantlı ilə tanış olub.

Xalqımızın milli-mənəvi dəyərlərinin daşıyıcısına çevrilmiş böyük tarixi şəxsiyyətlərin və qəhrəmanların xatirələrinin əbədiləşdirilməsi gənc nəslin azərbaycanlılıq məfkurəsinə sədaqət ruhunda tərbiyə olunması baxımından müstəsna önəm daşıyır. Abidənin müəllifi heykəltəraş Tokay Məmmədovun təqdimatında xalq qəhrəmanı Koroğlunun abidəsi igidlik və qəhrəmanlıq elementləri ilə yanaşı, özündə vətənə və xalqa sədaqət hisslərini əks etdirməlidir. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində abidənin müstəsna əhəmiyyətinin olacağı da birmənalıdır.

**Bu fəslin ikinci** – **“**Monumental heykəllərin bədii estetik və həcm-fəza həlli**”** adlanan yarımfəslində heykəltəraşın şəhərlərimizdə mövcud olan monumental heykəltəraşlıq abidələri şərh olunur.

Müasirlərinə böyük maraq hissi, onların xarakterlərindəki ən ümdə cəhətləri daha canlı vermək cəhdi, kompozisiyanı müxtəlif bədii üsullarla daha da zənginləşdirmək Tokay Məmmədovun yaradıcılığının səciyyəvi cəhətləridir. Bu mənada onun yaradıcılığında milli mövzular xüsusi yer tutmasını və əsərlərində respublikanın tanınmış insanlarının obrazları üstünlük təşkil etdiyini də vurğulamaq lazımdır. Azərbaycan Dövlət Konservatoriyasının qarşısında ucaldılmış dahi bəstəkar Üzeyir Hacıbəylinin heykəlini (1960) bu baxımdan nümunə kimi göstərmək olar.

Üç illik gərgin yaradıcı əməyin bəhrəsi olan Üzeyir Hacıbəyovun abidəsi heykəltəraşlığımızda haqlı olaraq mühüm yer tutur. Belə ki, heykəltəraşın yaratdığı bu abidə bədii vasitələrin seçimi, eskizdən tutmuş orijinala qədər bütün axtarış yolu bir məqsədə-daha artıq fəal emosional obrazlı həllə nail olmağa tabe edilmişdir. O dövrdə icra olunmuş çoxsaylı eskiz variantları onu sübut edir ki, heykəltəraş öz qarşısına mürəkkəbliyi ilə biri-birindən seçilən vəzifələr qoymuş yəni, özünəməxsuz kompozisiya həllinə cəhd göstərmiş, əsas fikri dərin mzmunun ifadəli tərzdə açıqlanmasına, dahi bəstəkarın mənəvi aləmini və obrazın poetik mahiyyətini təsvir etməyə yönəltmişdir.



zahiri görünüşündən daha çox onun daxili xüsusiyyətlərini açıb göstərməyə çalışmışdır. Bununla bərabər heykəltaraş əsərin ümumi plastik bütövlüyünə fikir verməklə, həm də obrazın konkret reallığına nail olmuşdur. Heykəltəraşın insan gözəlliyini aşkarlamaq istəyi onun yalnız obrazın xarici görüşündəki cəhətlər plastik görkəm verməsi ilə bitmir, həm də təsvir olunanın daxili keyfiyyətlərini aşkarlanmasından keçir. Bu mənada 1961-ci ildə yaradılmış Azərbaycanın satirik şairi Mirzə Ələkbər Sabirin, ictimai xadim, dövlət rəhbəri və yazıçısı Nəriman Nərimanovun, Gəmi təmiri zavodunun işçisi Rzayevin, fəhlə gəncə həsr olunmuş “Oğlan” portretləri qeyd etmək olar.

Sənətşünaslar Tokay Məmmədovun ağacdan yaratdığı portretləri yüksək qiymətləndirirlər. Professor Cəmilə Novruzova qeyd edir ki, “ağac parçasını canlandırmaq, onu müəyyən formaya salmaq və ümumiyyətlə heykəlləşdirmək çox çətin məsələdir. Buna baxmayaraq, T.Məmmədov daima bu çətin məsələnin öhdəsindən müvəffəqiyyətlə gələrək yeni-yeni obrazlar yaradır. Müxtəlif ağac materiallarının xüsusiyyətlərini dəqiq öyrənərək düzgün plastikadan və daxili psixoloji xüsusiyyətdən istifadə edir”. [4]

Böyük mütəfəkkir Mirzə Fətəli Axundovun (1962), Kuba respublikasının prezidenti Fidel Kastronun (1962), Azərbaycan opera musiqisinin banisi Üzeyir Hacibəyovun (1957), Azərbaycan yazıçısı Süleyman Rəhimovun (1969) portretlərindən aydın görünür ki, Tokay Məmmədov əsərlərində insan xarakterinin əsas səciyyəvi cizgilərini göstərməyə cəhd edir. Bunun üçün işə başlamazdan əvvəl o, modeli uzun müddət müşahidə edir, buna imkan olmayanda barəsində zəngin material toplayır, yaradıcılıq prosesində isə onun hər bir detalı üzərində səylə işləyir, onun inandırıcılığına nail olur.

Heykəltəraşlıqda portret janrı insanın mənəvi aləmi, fərdi cizgiləri, zahiri oxşarlıq əlamətləri ilə yanaşı bütünlükdə insanın varlığını təsdiqləyəcək cəhətlərinə inandırıcı plastik görkəm verməklə, həm də heykəltəraşın təsvir olunan obraza fərdi münasibətini açıqlamağa daha çox imkan verir.

Bu mənada Tokay Məmmədovun “Şirəli Müslümov portreti” (1969) obraza aid səciyyəvi cizgilərin konkret bədii ifadə vastələrinin uğurlu

---

[4] Novruzova C. Yaradıcılıq dostluğu // «Ədəbiyyat və incəsənət» qəz., 1961, 19 avqust, s. 4.

seçiminin, ilk baxışda sadə təsir bağışlayan kompozisiyanın zəngin emosionallığına və psixoloji yaşantılarına yaddaqalan plastik tutum vermək baxımından xarakterikdir.

Tokay Məmmədovun yaradıcılığında tanınmış musiqiçilərin portretləri xüsusi yer tutur. Bu onun Dünya və milli musiqi sənətinin sirlərinin bilməsi, klassik musiqini sevməsi ilə bağlıdır. Onun uşaqlıq xatirələrində anası Zivər xanımın dahi bəstəkar, milli operamızın yaradıcısı Ü.Hacıbəyovun portiretini necə işləməsi hələdə yaşamaqdadır.

Qeyd edək ki, Üzeyir bəy özü şəxsən Zivər xanımın emalatxanısına gələr və onun portreti birbaşa naturadan yapılardı.[5]

Uşağlıq dövründən bu insanın obrazını canlandırmaq istəyi ilə yaşayan heykəltəraşın bu istiqamətdəki axtarışları səmərəli nəticə verir. Bu işdə anası Zivər xanımın düzəltdiyi Üzeyir bəy ünvanlı portretlərin də böyük rolu olmuşdur. Tokay Məmmədov 1957-ci ildə bəstəkarın tuncdan portretini yapır. O, portretin bədii psixoloji mənalığına detalların canlı və dəqiq təqdimatı sayəsində nail olmuşdur.

Tokay Məmmədov bir çox xarici ölkələrdə yaradıcılıq səfərlərində olmuşdur. Səfərlərdən qayıdandan sonra həmin getdiyi ölkələrin dövlət xadimlərinin, sənət adamlarının, şairlərinin bir çox portiretlərini yaratmışdır. Bu cür portretlərin sırasında heykəltaraşın Avropa ölkələrinin ən sevimli və qüdrətli bəstəkarı F.Şopenin və Motsartın portretlərini göstərmək olar.

1964-cü ildə heykəltəraş Polşaya səfərindən sonra bir sıra portret əsərləri yaradır ki, bunlardan biri də məşhur bəstəkar F.Şopenə həsr olunmuşdur. Heykəltəraş Tokay Məmmədov bəstəkar Şopenin portretinin yaranması haqqında belə deyir: “Mən musiqini çox sevirəm, əgər sənətkarın mövzuya məhəbbəti olmasa, işləmək də çətindir. Müraciət etdiyin obrazın əsas xüsusiyyətləri bu məhəbbətlə birləşəndə əsəri yaratmaq da asan olur. Mən, Şopenin büstünü təsadüfən hazırlamamışam, məlumdur ki, böyük bəstəkar vətəndən uzaqlarda Parisdə vəfat edib. Həmvətənləri onun vəsiyyətinə əməl edərək bəstəkarın cənazəsini Fransada, ürəyini isə Varşavada dəfn ediblər. Onun maskasını mənə bağışlayanda fikirləşdim ki, böyük bəstəkarın ürəyi təkcə Varşavada deyil, gözəl musiqisi ilə bərabər dünyanı dolaşır və heç vaxtı döyünməkdən qalmır, yaşayır. Deməli, sənətkar

[5] Abdullaoğlu A. Yaşıla gedən yol // «Qobustan» sənət toplusu, 1973, №2, s. 64-66.



anlardan o, öhdəsinə götürdüyü yaradıcılıq vəzifəsinin məsuliyyətini dərk etmişdir. Buna görədir ki, sənətkar böyük gərginliklə işləmiş, mübariz inqilabçı, partiya və xalq işinə sadiq bir insan, zəhmətkeş kütlələrini sevimlisi olan M.Əzizbəyovun surətini bu günün və gələcəyin nəsillərinə yetirmək istəyində olmuşdur. Müəllif heykəlin kompozisiyasında, mərmər pyedestalla tunc heykəlin əlaqəsində, ümumiyyətlə, bədənin hərəkətində, nəhayət obrazın psixoloji emosional ifadəsində yenilməz insanlara xas olan nişanələri axtarıb tapmağa və bunları plastik sənətin məhdud imkanları daxilində açıb göstərməyə nail olmuşdur.[11]

Son zamanlar bir çox sənətşünaslar şəhərimizdə ucaldılan Məşədi Əzizbəyovun heykəlinin artıq olduğunu mətbuatda qeyd ediblər. Sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyevin fikirləri digərlərindən fərqlidir. O qeyd edir ki, “Bu gün də şəhərimizdə qəhrəmanlıq obrazlarımız olan Koroğlunun, Babəkin, Cavanşirin heykəlləri indinin özündə də ucaldılmamışdır. Azərbaycanın azadlığı, istiqlalı üçün ömrünü fəda etmiş Məmmədəmin Rəsulzadənin də monumental heykəlinə şəhərimizin ehtiyacı var”. 2009-cu ilin aprel ayının 26-da Məşədi Əzizbəyovun monumental heykəli ucaldığı yerdən götürüldü. Bu hadisəyə bəzi sənətkarlar etiraz, bəziləri isə heykəlin götürülməsini təqdir etdilər. Çünki bu əsər həm tarix baxımından, həm də Tokay Məmmədovun yaradıcılığının önəmli bir səhifəsini təşkil edən sənət nümunəsi kimi dəyərə malikdir.[12]

Heykəltəraş Tokay Məmmədovun yaradıcılığına nəzər yetirəndə məlum olur ki, bir çox monumental heykəllərin model və eskizlərini hazırlamasına baxmayaraq bu abidələr ucaldılmamışdır. Bu qəbildən onun “Bakı fəhləsi”, “Koroğlu” “Azərbaycan Demokratik Resbublikasının şərəfinə abidə”, “İstiqlal abidəsi” “Atatürk” heykələrini göstərmək olar.

Heykəltəraş Tokay Məmmədov əfsanəvi dastanımızın əfsanəvi qəhrəmanı “Koroğlunun” heykəl modelinin hazırlanmasına on ildən çox bir zaman sərf etmişdir. Bu dövr ərzində sənətkar Koroğlunun iki variantda heykəlini yaratmışdır. Hər bir yaradılmış variantın özünəməxsus xüsusiyyətləri mövcuddur.

[11] Kazımzadə Kazım. Böyük yaradıcılıq uğuru // “Ədəbiyyat və incəsənət” qəz., 1978, 26 avqust, s. 5.
[12] Əliyev Ziyadxan. Yeddi heykəlin tarixçəsi // “Yaddaş” qəz.,1998, 4 mart, s. 6.

əsasən portret janrı ilə inkişaf etmişdir. İnsan xarakterini, onun psxoloji-fəlsəfi tərəflərini dərindən öyrənməklə yaratdığı portret əsərlərində obrazlılığa nail olan heykəltəraş sənətdə kifayət qədər püxtələşəndən sonra monumental abidələr üzərində işləməyə başlayır. Heykəltəraşın ilk monumental əsəri sənət həmkarı Ömər Eldarovla birlikdə, 1957-ci ildə Sumqayıt şəhərində mərkəzi meydanında ucaldılmış "V.İ.Lenin"in heykəli olmuşdur. Ölkəmiz müstəqillik əldə etdikdən sonra dövrün ideoloji tələblərinə cavab vermədiyi üçün götürülmüşdür.

1980-ci ildə Tokay Məmmədovun (memar A.Surkinlə birlikdə) Bakı şəhərində "XI Qızıl Ordu" adlı monumentinin açılışı olmuşdur. Meydanın mərkəzində süni yaradılmış konusvarı yaşıl təpənin üstündə, V.İ.Leninin anadan olmasının 110 illiyi, Sovet Azərbaycanın və Azərbaycan Kommunist partiyasının yaradılmasının 60 illiyi, Böyük Vətən müharibəsində qələbənin 35 illiyi ərəfəsində "XI Qızıl Ordu" abidəsinin açılışı baş tutmuşdur. Abidənin yeri təsadüfü seçilməmişdi. Monument dairəvi kürsü üzərində gerçəkləşən üç insan fiqurundan ibarətdir. Heykəl-kompozisiyasının mərkəzində qizil əsgər əlində bayraq tutmuş vəziyyətdə təsvir olunmuşdur. Ətrafda təsvir olunmuş əsgərlər isə əllərində silah tutmuş vəziyyətdə göstərilmişdir. Əsgərin birinin geyimindən müəyyən edirsən ki, o, azərbaycanlıdır. Azərbaycanlı surətinin yaradılması XI Qızıl Ordunun müqavimətsiz Bakıya gəlişini özümüzün istədiyimizə işarədir.[10]

Etiraf edək ki, Tokay Məmmədovun yaratdığı "XI Qızıl Ordu" monumenti ideoloji baxımdan ziyanlı olsa da, sənətkarlıq baxımından çox yüksək bədii dəyərlərə malik abidələrindən biri olmuşdur. Siyasi mahiyyətini nəzərə almasaq və sırf sənətkarlıq xüsusiyyətlərinə görə qiymətləndirməli olsaq, vaxtı ilə Azərbaycan heykəltərşılığına gözəl bir töhfə olmuşdur.

2009-cu ilin aprel ayının 26-da bir sıra KİV-də hay-küy doğuracaq bir informasiya yayıldı. Bu xəbər Bakı şəhərindəki Məşədi Əzizbəyovun abidəsinin demontajı ilə əlaqədar idi. Demontaj olunmasına qərar verilmiş bu abidənin müəllifi Tokay Məmmədov idi. Monument 1976-cı ilin aprel ayının 8-də indiki Yasamal rayonundakı bir parkda ucaldılmışdı.

Məlumdur ki, "Məşədi Əzizbəyovun" heykəli üzərində yaradıcılıq işinə başlarkən, Tokay Məmmədov ilk növbədə mövzu və obrazla əlaqədar toplanmış materialları bir daha nəzərdən keçirməli olmuşdur. Elə ilk

---

[10] Əliyev H. Beynəmlilər qardaşlığın rəmzi. (Bakıda XI Qızıl Orduya həsr olunmuş abidənin açılması münasibətilə) // "Kommunist" qəz., 1980, 19 aprel, s.1.



ürəyini dəfn etmək olmaz. Portreti yaradarkən, bu hisslər mənə çox kömək etdi". [6]

1960-cı ildən sonra Tokay Məmmədovun qadın portretlərində səciyyəvi cizgilər üstünlük təşkil edir və o, ifadəli psixoloji cəhətdən zəngin obrazlar yaratmağa başlayır. Bu cür keyfiyyətləri biz sənət həmkarı tanınmış fırça ustası "Vəcihə Səmədovanın portireti"ndə (1966) açıq-aydın görürük. Bu plastika nümunəsi aramızdan vaxtsız getmiş rəssamın fikirlərini, hisslərini, yaradıcılıq ideyalarını yaxşı təcəssüm etdirir.

Tokay Məmmədov yaradıcılığındakı dolğun portretlər qalereyası getdikcə bədii püxtələşmənin ifadəsi olan yeni-yeni obrazlarla zənginləşməkdədir. Obraz axtarışı, onun fərqli çalarları və bədii ifadə hüdudlarının genişləndirilməsi üzərində heykəltəraş çox vaxt davamlı işləməyə meyilli olduğundan, artıq öyrənilmiş, məlum olan obrazın yeni bədii həllərinə, xarakterin yeni məzmunda əksinə yenidən qayıtmasını təbii saymaq olar. Onun əsərlərində biz əsasən yaradıcı insanların obrazlarını görürük. Yaradıcı insanın portretini yaratmaq həm məsuliyyətli, həm də çətin işdir. Çünki hər bir alimin, şairin, bəstəkarın, rəssamın və s. xalqın qəlbində ucaldılan mənəvi heykəli var. Bu səbəbdən də heykəltəraş yaratdığı hər bir obrazı elə bir dəqiqlik və daxili psxoloji xüsusiyyətlərlə göstərməlidir ki, hər kəs onun bədii obrazına baxanda öz qəlbində yaşatdığı obrazın oxşarını görə bilsin. Bu mənada heykəltəraşın yaratdığı "Nəsrədin Tusi", "Dirijor Niyazı", "Yazıçı Süleyman Rəhimov", "Yazıçı Mirzə İbrahimov", "General Murtuz Quliyevin", "Sovet İttifaqı Qəhrəmanı Adil Quliyev", "Sovet İttifaqı Qəhrəmanı N.Şaverdiyayev", "Sovet İttifaqı Qəhrəmanı B.Mirzəyev" və "Azad Şərifin" portretlərinin adını çəkmək olar.

1970-1980-cı illərdə Tokay Məmmədovun yaradıcılığında monumental heykəl abidələri ilə yanaşı portret janrı da bərabər surətdə öz inkişafını tapmışdır. Bu dövrdə yaradılmış portretlərə nəzər yetirəndə bunlar əsasən ziyali təbəqəyə məxsus insanlardır. Cərrah Mirəli Cavadzadənin, müəllim Z.Səmədovun, yazıçı Mirzə İbrahimovun, bəstəkar Xəyyam Mirzəzadənin və. s portretlərini göstərmək olar. Bu əsərlərdə də daxili gərginlik, obrazı səciyyələndirən çeşidli insanı xüsusiyyətlər, dəqiq təsvir və dinamik biçim aydın görünür.

---

[6] Kərimzadə; F. Mustafayev İ. Ürəkdə abidələr // «Ədəbiyyat və incəsənət» qəz. 1967, 1 iyun.

Tokay Məmmədov 1990-2009-cu illərdə bir çox müsabiqələrdə portret əsərləri ilə iştirak etmişdir. Bu qəbildən biz heykəltəraşın nəvəsinə, Üzeyir Hacıbəyova, Motsarta həsr olunmuş portretləri göstərə bilərik. Yaradılmış bu portretlər Azərbaycanda və keçmiş Ümumuttifaq respublikalarında təşkil olunmuş sərgilərdə tamaşaçılara nümayiş etdirilmişdir.

T.Məmmədovun 1950-2009-cu illər ərzində yaratdığı bütün portret əsərlərinə xas olan səciyyəvi xüsusiyyət, onların obraz ilə zahiri oxşarlığı, insan psixologiyasının, zəngin daxili aləminin açıqlanmasına meyllilik, plastik həllin yüksəkliyi xasdır.

**Bu fəslin üçüncü –** "Memorial abidələr obrazların əbədi daşıyıcısı kimi" adlanan yarımfəsli heykəltəraşın memorial xatirə tipli yaradıcılığına həsr olunmuşdur.

Tokay Məmmədovun yaradıcılığında yer almış xatirə abidələri konkret görkəmli şəxslərlə bərabər, həmçinin İkinci Dünya müharibəsində həlak olmuş həmyerlilərimizin xatirəsini əbədiləşdirmək məqsədilə ucaldılmış sənət əsərləridir. Bu mənada heykəltəraşın Cəlilabad şəhərində ucaltdığı Böyük Vətən müharibəsində həlak olan Cəlilabadlılara əbədi xatirə kompleksini göstərmək olar (heykəltəraş İbrahim Zeynalovla birgə).[7]

Tokay Məmmədov yaradıcılığının ilk illərində – 1956-cı ildə XIX əsrdə yaşamış Azərbaycanın görkəmli alimi, şairi, rəssamı, "Məclisi fəramüşan" və "Musiqiçilər" məclisinin yaradıcısı olmuş Mir Mövsüm Nəvvabın Şuşa şəhərindəki Cıdır düzü qəbiristanlığındakı qəbirüstü abidəsini çox sadə biçimdə həll edilmişdir (memar R.Əbdürrəhmanov). O, rəssamı profil təsvir edən barelyefini mərmərdən yonmuşdur. Obeliskin ciddi və sadə forması Mir Mövsüm Nəvvabın yığcam biçimli barelyefi əhval-ruhiyyə daşıyıcısı kimi diqqət çəkir. Müəllif ilk növbədə rəssamın nurani simasında cəmləşdirməklə, onu təşkil edən əzalarına plastik görkəm vermişdir. Bu cür dəyərli sənət nümunəmiz hal-hazırda düşmən tapdağındakı Şuşa şəhərində əsirlikdə qalmaqdadır, salamat qalmasıda böyük şübhə altındadır.

Tokay Məmmədov həmçinin Azərbaycanın tanınmış vokalçısı-müğənnisi Murtuza Məmmədovun (Bülbülün), öz atası professor Həbib Məmmədovun, Azərbaycanın ilk heykəltəraş qadını anası Zivər Məmmədovanın və milli arfa məktəbinin banisi, əməkdar artist, həyat

[7] Сулейманов С. Борцам за свободу // газ. «Вышка», 1982, 9 апреля, с. 4.



yoldaşı Aida Abdullayevanın qəbirüstü abidəsini və Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri H.Cavidin, Bülbülün və N.Nərimanovun xatirə lövhələrini düzəltmişdir.[8]

Sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Novruzova Tokay Məmmədovun yaratdığı Bülbülün qəbirüstü abidəsi haqqında müsbət rəydə olduğunu, bu abidənin obrazı açan köməkçi detallarının yerli-yerində işləndiyini qeyd edir. Həmçinin alim, Ü.Hacıbəyovun, Bülbülün, C.Cabbarlının, C.Məmmədquluzadənin qəbirləri üzərində qoyulmuş abidələrdə də memorial heykəltəraşlığın ən yaxşı cəhətləri özünü göstərdiyi fikirindədir. Bu abidələr sadəliyi, obrazların dərinliyi və icra məharəti ilə nəzəri cəlb edir. Yeri gəlmişkən qeyd edək ki, Fəxri xiyabandakı plastika nümunələrində rəngarəng bədii üsullardan istifadə etmək üçün geniş imkanlar olmasına baxmayaraq, buradakı abidələrin çoxu forma və kompozisiya cəhətdən biri-birinə bənzəyirlər.[9]

Beləliklə, T.Məmmədovun memorial xatirə tipli yaradıcılığı, realistik sənətin metod və sirlərini mənimsəməyə səy göstərən, öz əsərlərinin mövzu və janr müxtəlifliyinə can atan, fərdi üslubunu yaratmağa çalışan mürəkkəb və bir-birinə zidd olan axtarışları ilə səciyyələnir.

Məhz nəzərdən keçirdiyimiz dövrlər Azərbaycan heykəltəraşlığında, sonrakı dövrlərdə öz uğurlarını daha da artıracaq, sözün əsl mənasında axtarışlara meylli gənc bir sənətkarın formalaşmasını şərtləndirmişdir.

**II Fəsil – "Tokay Məmmədov monumental duyumunun fəza-məkanda gerçəkləşdirilməsi"** adlandırılmış və iki yarımfəsildən ibarətdir. Burada heykəltəraşın 1960-ci illərdən başlayaraq 2010-cu ilə kimi davam edən geniş monumental heykəltəraşlıq əsərləri nəzərdən keçirilir.

**Bu fəslin** "Tokay Məmmədovun demontaj edilmiş monumental əsərlərinin bədii-estetik xüsusiyyətləri" adlanan birinci yarımfəslində sənətkarın vaxtı ilə şəhərlərimizdə ucaldılmış və indiki dövrdə demontaj olunmuş monumental heykəltəraşlıq əsərləri işıqlandırılır.

XX əsrin ortalarında Azərbaycan heykəltəraşlıq məktəbinə gələn və bu gün dəyərli tişə ustası kimi tanınan Tokay Məmmədov, bir çox monumental heykəllərin müəllifidir. Onun yaradıcılığının ilkin mərhələsi

[8] Nəsib Davud. Heykəltəraş ömrünün daimi ünvanı // "Ədəbiyyat və incəsənət" qəz., 1976, 28, fevral, s. 8.

[9] Новрузова Д..Г. Некоторые вопросы развития мемориальной скульптуры Азербайджана // Известия АН Азерб. ССР, 1970, №4 (I п.л.).

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ

*На правах рукописи*

**САМИР ГИСМЕТ оглы САДЫГОВ**

# ЗНАЧЕНИЕ ХУДОЖЕСТВЕННЫХ ОСОБЕННОСТЕЙ ТВОРЧЕСТВА ТОКАЯ МАМЕДОВА В АЗЕРБАЙДЖАНСКОЙ СКУЛЬПТУРЕ

Специальность: 62.15.01 — «Изобразительное искусство».

**А В Т О Р Е Ф Е Р А Т**

Диссертации, представленной на соискание ученой степени доктора философии в области искусствоведения

БАКУ – 2013

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI

*Əlyazma hüququnda*

**SAMİR QİSMƏT OĞLU SADIQOV**

# TOKAY MƏMMƏDOVUN YARADICILIĞININ BƏDİİ XÜSUSİYYƏTLƏRİNİN AZƏRBAYCAN HEYKƏLTƏRAŞLIĞINDA ƏHƏMİYYƏTİ

**İxtisas:** 62.15.01 – Təsviri sənət

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

B A K I – 2013

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun "Təsviri və dekorativ-tətbiqi sənətlər" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Cəmilə Həsən qızı Novruzova**
*sənətşünaslıq üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Çingiz Əbdülməcid oğlu Fərzəliyev**
*Əməkdar incəsənət xadimi, professor*

**Telman İsmayıl oğlu İbrahimov**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı müəssisə:** **Azərbaycan Rəssamlar İttifaqı**

Müdafiə **2013-cü ilin noyabr ayının 29 saat** "**<u>11:00</u>**" Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1065, Bakı, Heydər Əliyev prospekti 58, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Elmi Şurasının iclas otağı.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasınfa tanış olmaq olar.

Avtoreferat "**<u>29</u>**" **<u>oktyabr</u>** **2013-cü** il tarixində göndərilmişdir.

**FD.02.191 Dissertasiya Şurasının elmi katibi:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru:** **X.Z.Əsgərova**

Sifariş № 291; tiraj100
"ADNA" mətbəəsində
çap olunmuşdur